Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

ARTİ Azərbaycan Respublikasının Təhsil İnstitutu

MÜTDA Məktəbəqədər və ümumi təhsil üzrə dövlət agentliyi

birbank

RFO

RESPUBLİKA FƏNN OLİMPİADALARI

RAYON (ŞƏHƏR) MƏRHƏLƏSİ

**Ad** ______________________ **Soyad** ______________________

# 9-cu sinif

# TARİX

## Azərbaycan bölməsi

- İmtahan müddəti — **150 dəqiqədir**.
- Hər səhv cavab öz dəyərinin **1/4-ni aparır**.
- Sualların hər biri **5 balla** qiymətləndirilir.
- Kitabçada **20 sual** mövcuddur.
- Nəzarətçilərə cavab kağızları təqdim olunur.
- Rayon (şəhər) mərhələsinin nəticələrini **03.02.2026**-cı il tarixindən etibarən **portal.edu.az** platformasında (QR kodu skan edərək) şəxsi kabinetinizdən və təhsil aldığınız ümumtəhsil müəssisəsindən öyrənə bilərsiniz.

Kitabçamda texniki qüsur (çap olunmamış, aydın olmayan səhifə, natamam suallar) olmadığını və məlumatların (sinif, fənn, bölmə) mənim məlumatlarıma uyğunluq təşkil etdiyini təsdiq edirəm.

İmza: ______________________

**1.** Sasani şahı I Qubadın hakimiyyəti dövründə baş vermişdir:

a. Məzdəkilərə qarşı mübarizə aparılması
b. Feodalların mərkəzi hakimiyyətə qarşı çıxması
c. Xəzər dövlətinin Albaniyaya yürüş etməsi
d. Sahibsiz torpaqların hərbiçilərə paylanması

A) c, d
B) b, c
C) a, b
D) a, c
E) b, d

**2.** E.ə. II minilliyin sonlarında lullubi və kuti tayfalarının müstəqillik uğrunda mübarizə aparmasına səbəb oldu:

A) İranzunun Mannada mərkəzləşdirilmiş dövlət yaratmaq istəməsi
B) Akkad dövlətinin Azərbaycana yürüşləri
C) Assur dövlətinin Urmiya gölü hövzəsinə hücum etməsi
D) Babil dövlətinin Mesopotamiyaya hücum etməsi
E) Kimmer və iskitlərin onları tabe etməyə çalışması

**3.** Şirvanşah I Xəlilullahdan fərqli olaraq, Bayandurlu Həsən padşah:

1. Teymuri qoşunlarını məğlubiyyətə uğratmışdı
2. Baharlılarla mübarizə aparmışdı
3. Səfəvi şeyxləri ilə dostluq münasibətləri saxlayırdı
4. Van gölü ətrafında feodal hakimliyin əsasını qoymuşdu

A) 1, 2
B) 2, 3
C) 3, 4
D) 1, 3
E) 2, 4

**4.** Müasir xəritədə Şəddadi hökmdarı I Ləşkərinin ələ keçirdiyi əraziləri müəyyən edin.




A) 3, 4
B) 1, 2
C) 2, 5
D) 1, 3
E) 4, 5

**5.** 1795-ci ildə Ağa Məhəmməd xan Qacarın yürüşünə qarşı qurulmuş ittifaqa qoşulmadı:

A) Qarabağ və Lənkəran xanlıqları
B) İrəvan xanlığı və gürcü çarlığı
C) Quba və Gəncə xanlıqları
D) Şamaxı və Qarabağ xanlıqları
E) Şəki və Lənkəran xanlıqları

**6.** XVIII əsrin ortalarında Pənahəli xana ərazilərini genişləndirməyə imkan verdi:

A) Bayat savaşından sonra Qarabağ xanlığının nüfuzunun artması
B) Kərim xan Zəndlə ittifaq qurulması
C) Xristian məlikliklərin Ballıqayada məğlub edilməsi
D) Məhəmmədhəsən xan Qacarın hücumunun qarşısının alınması
E) Qubalı Fətəli xanın Qarabağa uğursuz yürüşləri

**7.** Cənubi Qafqaz Komissarlığının fəaliyyətini dayandırmasına səbəb oldu:

A) Rusiyada Oktyabr çevrilişinin baş verməsi
B) Bakı Sovetinin müsəlmanlara qarşı soyqırım törətməsi
C) Erməni və gürcülərin Osmanlı dövləti ilə müharibədə məğlub olması
D) Şəmkir stansiyasında rus əsgərləri və azərbaycanlılar arasında baş verən toqquşma
E) Xarici və daxili siyasətdə fraksiyalar arasında fikir ayrılığı

**8.** Şimali Azərbaycanda 1870-ci il kəndli islahatının yarımçıq qaldığını göstərirdi:

A) Kəndlilərin şəxsən feodal asılılığından azad edilməməsi
B) Dövlət kəndlilərinə meşə, otlaq və çəmənlərdən pay ayrılmaması
C) Biyarın öz mövcudluğunu qoruyub saxlaması
D) Sahibkar kəndlilərinin əksəriyyətinin pay torpağının mülkiyyətçisinə çevrilməməsi
E) İslahatın yalnız dövlət kəndlilərinə aid edilməsi

**9.** Xronoloji ardıcıllığı müəyyən edin.

1. Yakobin diktaturasının devrilməsi
2. ABŞ konstitusiyasının qəbul edilməsi
3. İngiltərənin parlamentli monarxiya idarəçiliyinin qurulması
4. Rusiyanın imperiya adlandırılması

A) 3, 2, 4, 1
B) 4, 3, 1, 2
C) 2, 1, 4, 3
D) 3, 4, 2, 1
E) 1, 2, 3, 4

**10.** XIX əsrin II yarısına aid uyğunluğu müəyyən edin.




a. Konstitusiyanın qəbul edilməsi
b. Üçlər ittifaqına qoşulması
c. Balkan müharibəsində məğlub olması
d. San-Stefano müqaviləsinin imzalanması
e. Afrika və Asiyada təcavüzkar siyasət yeritməyə başlaması

A) 1-b,d; 2-e; 3-a
B) 1-a; 2-b,c; 3-d,e
C) 1-d; 2-a,e; 3-b,c
D) 1-a,e; 2-d; 3-b,c
E) 1-b,e; 2-d; 3-a

**11.** XIX əsrin sonlarında İtaliyanın üzərinə götürdüyü öhdəliklərdəndir:

A) Avstriya-Macarıstan və Rusiya arasında baş verəcək münaqişədə bitərəf qalmalı idi
B) Elzas və Lotaringiyanı Almaniyaya güzəştə getməli idi
C) Lombardiyanın Avstriyanın nəzarətində qalmasına razılıq verməli idi
D) Dünya müharibəsi başlayacağı zaman Antantaya qoşulmalı idı
E) Balkan dövlətlərinə qarşı Osmanlını dəstəkləməli idi

**12.** Hadisə-nəticə əlaqəsini müəyyən edin.

| | Hadisə | Nəticə |
|---|---|---|
| A) | Kutül-Amarə döyüşünün baş verməsi | Osmanlının Anadolunun şərqində mövqeyinin zəifləməsi |
| B) | Somma döyüşünün baş verməsi | Almaniyanın ilk dəfə zəhərli xlor qazından istifadə etməsi |
| C) | Marna döyüşünün baş verməsi | Almaniyanın iki cəbhədə müharibə aparmağa məcbur qalması |
| D) | Yutlandiya döyüşünün baş verməsi | Almaniyanın qələbəsi ilə başa çatması |
| E) | Kompyen sülhünün imzalanması | Sovet Rusiyasının I Dünya müharibəsindən çıxması |

**13.** Klassik feodalizm dövrünə aid hadisələri müəyyən edin.

1. Oğuz dövlətinin əsasının qoyulması
2. Monqolların Avropanın cənub-şərq hissəsinə yürüşləri
3. İngiltərədə "qalxan pulu" vergisinin toplanmağa başlanması
4. Osmanlı qoşunlarının Ankara döyüşündə məğlub olması
5. "Xalqların böyük köçü"nün başa çatması

A) 1, 2, 3
B) 2, 3, 4
C) 3, 4, 5
D) 2, 3, 5
E) 1, 4, 5

**14.** II Kambiz və Makedoniyalı İsgəndərin fəaliyyəti üçün oxşar cəhət:

A) E.ə. VI əsrin 20-ci illərində hakimiyyətdə olmaları
B) Yunan şəhər-dövlətləri ilə müharibə aparılması
C) İdarə etdikləri dövləti mərzbanlıqlara bölmələri
D) Misir ərazisinin tabe edilməsi
E) Babil şəhərinin paytaxta çevrilməsi

**15.** Mənbəni oxuyun və müəllifini müəyyən edin:

"Şirvan hakimləri şahın xəzinəsinə istədikləri qədər pul göndərirdilər. Bəzi hallarda bəylərbəyilər mərkəzin göstərişi olmadan vergilərin miqdarı və həcmini artırırdılar".

A) İ. Q. Herber
B) Kempfer
C) A. Oleari
D) J. Şarden
E) P. della Valle

**16.** Kiçik juzun hakimi Əbülxeyir xanın hakimiyyəti qoruması ilə nəticələndi:

A) Batır Srım üsyanının qələbə ilə nəticələnməsi
B) Xanın Rusiyanın himayəsini qəbul etməsi
C) Cunqar xanlığının daxili çəkişmələr nəticəsində zəifləməsi
D) Nadir şahdan vassal asılılığını qəbul etməsi
E) 1728-ci ildə qazaxların cunqarlar üzərində qələbə qazanması

**17.** Nadir şah tərəfindən xüsusi naiblər təyin olunurdu:

A) Yeni şahın hakimiyyətini qəbul etmiş hakimlərin yanına
B) Azərbaycan əyalətinə rəhbərlik etmək üçün
C) Qarabağ bəylərbəyliyini müvəqqəti idarə etmək üçün
D) Din xadimlərinin dövlət işlərinə müdaxiləsinin qarşısını almaq üçün
E) Süvari qoşunun təşkilini sürətləndirmək üçün

**18.** Şah I Abbasın İraq ərazisini Səfəvi dövlətinə tabe etməsinə təsir göstərdi:

A) Osmanlı dövlətinin Cəlali üsyanları nəticəsində zəifləməsi
B) Bağdad hakiminin üsyançılara qarşı I Abbasdan kömək istəməsi
C) Sınıq körpü döyüşündə Osmanlılar üzərində qələbə qazanması
D) İngiltərə ilə əməkdaşlıq müqaviləsinin imzalanması
E) Osmanlı imperiyasında baş verən daxili çəkişmələr

**19.** E.ə. III əsrin II yarısında baş verməmişdir:

1. Parfiya dövlətinin meydana gəlməsi
2. Yunan şəhər-dövlətlərinin Makedoniya hakimiyyətinə düşməsi
3. Aşokanın Hindistanı vahid dövlətdə birləşdirməsi
4. Mark Trayanın işğalçı yürüşlər həyata keçirməsi

A) 1, 2
B) 2, 4
C) 3, 4
D) 1, 3
E) 2, 3

**20.** Xronoloji ardıcıllığı müəyyən edin:

1. Nəcəf şəhərinin Əfşarlar dövlətinə birləşdirilməsi
2. Qəndəhar şəhərinin Əfşarlar dövlətinə birləşdirilməsi
3. Nadir şahın Dehli şəhərini ələ keçirməsi
4. Şeyx Mənsurun başçılığı ilə üsyanın başlanması

A) 1, 2, 3, 4
B) 4, 3, 1, 2
C) 2, 1, 4, 3
D) 3, 4, 2, 1
E) 2, 3, 1, 4